| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | HİST424, Azərbaycan dövlətçilik tarixində Səfəvi dövləti fenomeni, 6 AKTS |
| | **Departament** | Tarix və Arxeologiya departamenti |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/2026-cı tədris ilinin yaz semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | Dr. Ülviyyə İbrahimova |
| | **E-mail:** | ulviya_ajdar@mail.ru<br>ulviyya.ibrahimova@khazar.org |
| | **Telefon:** | |
| | **Mühazirə otağı/Cədvəl** | Nərimanov kampusu, III-V günlər 10:40; 12:20 |
| | **Məsləhət saatları** | Tələbələrlə razılaşdırılan vaxtlarda |
| **Prerekvizitlər** | Azərbaycan tarixi-1 | |
| **Tədris dili** | Azərbaycan dili | |
| **Fənnin növü (məcburi, seçmə)** | Seçmə | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas ədəbiyyat**<br>1. Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci illərə qədər) / prof. S.S. Əliyarlının redaktəsi ilə. Bakı: Çıraq, 2009, 872 s.<br>**2. Bayramlı Z, Şabiyev Ş. Azərbaycan Səfəvi dövləti (XVI-XVIII əsrlər). Bakı: “Elm və təhsil” nəşriyyatı, 2017, 360 s**.<br>3. Bayramlı Z. Azərbaycan Səfəvi imperatorluğu: Dövlət quruluşu. Bakı, “Fiyuzat” nəşriyyatı, 2020, 596 s.<br>4. Bayramlı Z. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında Türk Qızılbaş əyanlarının rolu. Bakı: “Avropa” nəşriyyatı, 2015, 348 s.<br>5. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı: "Şərq-Qərb", 2007, 344 s.<br>6. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti. Bakı, Turxan MPB, 2020, 520 s.<br>7. Süleymanov N. Azərbaycan Səfəvi dövləti XVII əsrdə (J.Şarden, J.B.Tavernye, P.D.Valle və E.Kempferin gündəlikləri əsasında). Bakı: “İqtisad Universiteti” nəşriyyatı, 2021.284 s.<br>8. Azərbaycan tarixi üzrə qaynaqlar. İkinci nəşrin tərtibçisi və redaktoru Prof. Dr. Süleyman Əliyarlı. Bakı: "Çıraq", 2007, 400 s.<br>9. Məmmədova Ş. Xülasət ət-təvarix Azərbaycan tarixinin mənbəyi kimi. Bakı: Elm, 1991, 120 s.<br>10. Məlikzadə Sevinc. Azərbaycan Səfəvi və Əfşar imperiyaları xristian missionerlərinin məlumatlarında. Bakı, 2024. | |

**Əsas qaynaqlar:**


11. Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər (XVI-XVII əsrlər). Bakı, 1977
12. Şah İsmail Səfəvi (Xətai) külliyyatı. Qəzəllər, qəsidələr, Nəsihətnamə, Dəhnamə, qoşmalar. Mətnin elmi-tənqidi tərtibatçısı Mirzə Rəsul İsmailzadə. Bakı: Əlhuda nəşriyyatı, 2004, 534 s.
13. Şah İsmayıl Səfəvi (tarixi-diplomatik sənədlər toplusu). Fars və ərəb dillərindən tərcümə Şahin Yəhyayev, Elmin Əliyev. Bakı: "Şərq-Qərb" nəşriyyatı, 2014, 400 s.
14. Şeyx Səfiəddin Ərdəbili. Qara məcmuə (Şeyx Səfiəddin Ərdəbilinin şerləri, sözləri, öyüdləri və mənqəbələri). Doktor Hüseyn Məhəmmədzadə Sədiqin hazırlayıb nəşr etdirdiyi mətn əsasında (Tehran-2001-ci il) transliterasiya edib çapa hazırlayan, ön söz, izah və şərhlərin müəllifi f.e.n. İslam Qəribli, Bakı, 2004.
15. Zühuri-dövləti-Səfəviyan. Nəşrə hazırlayan Namiq Musalı. Bakı: Mütərcim, 2013, 97 s.
16. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi) I cild. Fars dilindən tərcümə Şahin Fərzəliyev. Bakı: "Şərq-Qərb" nəşriyyat evi, 2010, 1144 s.
17. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi) II cild. Fars dilindən tərcümə Şahin Fərzəliyev. Bakı: "Şərq-Qərb" nəşriyyat evi, 2014, 1400 s.
18. Həsən bəy Rumlu. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı). Kastamonu: Uzanlar, 2017, 661 s.


**Əlavə ədəbiyyat:**


19. Abdullatif Kazvinî. Safevî tarihi. Çeviren ve notlandıran Hamidreza Mohammednejat. Ankara: Birleşik yayınları, 2011, 132 s.
20. Bayramlı Zabil. “Silsilətün-Nəsəbi Səfəviyyə” əsəri Azərbaycan tarixinin mənbəyi kimi.Bakı,2019, 106 s.
21. Hoca Sadettin Efendi. Tacüt-tevarih. Cilt 3. Hazırlayan İsmet Parmaksızoğlu. Ankara: Kültür Bakanlığı yayınları, 1992, 399 s.
22. Hoca Sadettin Efendi. Tacüt-tevarih. Cilt 4. Hazırlayan İsmet Parmaksızoğlu. Ankara: Kültür Bakanlığı yayınları, 1992, 407 s.
23. Hoca Sadettin Efendi. Tacüt-tevarih. Cilt 5. Hazırlayan İsmet Parmaksızoğlu. Ankara: Kültür Bakanlığı yayınları, 1999, 323 s.
24. Xacə Zeynalabdin Əli Əbdi bəy Şirazi. Təkmilətül-Əxbar. Fars dilindən tərcümə Əbülfəz Haşım oğlu Rəhimlinindir, Bakı, 1996.
25. Xacə Zeynalabdin Əli Əbdi bəy Şirazi. Təkmilətül-Əxbar. Fars dilindən tərcümə Əbülfəz Haşım oğlu Rəhimlinindir, Bakı, 1996.

<table>
<tr><td></td><td colspan="3">26. Oruç bey Bayat (Don Juan). İlişkiler / Bir şii katolik. Tercüme ve notlar Tufan Gündüz. İstanbul: Yeditepe yayınları, 2014, 272 s.<br>27. Osmanlı belgelerinde Azerbaycan. Editör Nuran Koltuk. Hazırlayan Dr. Mehmet Güneş, Erdinc Şahin, M. Taner Koltuk, S. Atilla Sağlamçubukçu. İstanbul: TDBB yayınları, 2015, 624 s.</td></tr>
<tr><td>Kursun təsviri</td><td colspan="3">Səfəvilər dövlətinin Azərbaycan dövlətçilik tarixində xüsusi çəkiyə malik olmasının səbəbləri, Qızılbaşlar dövləti adlandırılan Şərqin böyük imperiyalarından biri sayılan bu dövlətin yaranmasından süqutunadək baş verən hadisələrin, dini-fəlsəfi ideologiyanın inkişaf tarixi bu kursda təhlil edilərək tədris edilir. Səfəvi dövlətinin yaranmasında yer alan siyasi, ideoloji, tarixi, coğrafi amillər tələbələr tərəfindən ilkin qaynaq məlumatlarının cəlb edilməsi ilə araşdırılaraq dövlətin inzibati idarə sistemi, daxili və xarici siyasəti öyrənilir.</td></tr>
<tr><td>Kursun məqsədləri</td><td colspan="3">Azərbaycan milli dövlətçilik ənənəsinin orta əsrlərdə davam etdirilməsinin, yeni xüsusiyyətlərinin formalaşmasının, türk varlığının və türk mədəniyyətinin ideoloji düşüncəyə təsir amillərinin qavranılması kursun əsas məqsədlərini təşkil edir. Kursun əsas məqsədləri:<br>- Səfəvi dövlətinin milli varlığımızın qorunub saxlanılmasında oynadığı tarixi rolu sənədli materiallar üzərindən izah edilməsi<br>- Qızılbaşlıq ideologiyasının və türk kimliyinin Səfəvi dövlətinin yaradılmasında və inkişafındakı mövqeyinə aydınlıq gətirilməsi<br>- Səfəvi dövlətinin tarixi haqqda mövcud elmi nəzəriyyələrlə tanışlıq<br>- Səfəvi dövlətinin inkişaf tarixinin mərhələlərə əsaslanaraq tədris edilməsi<br>- Dövlətin inkişafında önəmli rol oynayan hökmdarlar haqqında ətraflı məlumatın verilməsi<br>- Səfəvilər dövlətinin süqut səbəblərinin araşdırılması<br>- Səfəvi dövrü mədəniyyətinin öyrənilməsi</td></tr>
<tr><td>Tədrisin (öyrənmənin) nəticələri</td><td colspan="3">Tədrisin əsas nəticələri tələbələrin qaynaqlar üzərindən<br>- araşdırmanın aparılma qaydalarının öyrənməsi;<br>- Vətən tarixinin tarixşünaslığında mövcud durum haqqda məlumatların əldə etmələri;<br>- qaynaqlarla işləyərək müstəqil elmi nəticə əldə etmək bacarığına yiyələnməsindən ibarət olmalıdır.</td></tr>
<tr><td rowspan="4">Tədris metodları</td><td colspan="2">Məşğələ</td><td>x</td></tr>
<tr><td colspan="2">Qrup müzakirəsi</td><td>x</td></tr>
<tr><td colspan="2">Praktiki tapşırıqlar</td><td>x</td></tr>
<tr><td colspan="2">Praktiki məsələnin təhlili</td><td>x</td></tr>
<tr><td rowspan="2">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Yoxlama (quiz)</td><td>I Yoxlama – aprel ayının ilk həftəsi<br>II Yoxlama – may ayının sonuncu həftəsi</td><td>9+9</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| | **Tapşırıq** | Kurs işi (mövzular əlavədə) | 10 |
| | **Davamiyyət** | Semestr boyu | 5 |
| | **Aktivlik** | Dərslərdə müstəqil iş | 7 |
| | **Aralıq imtahanı** | aprel | 30 |
| | **Final imtahanı** | iyun | 30 |
| | **Yekun** | | 100 |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Aktivlik**<br>Tam aktivlik balı dərslərdə, diskussiyalarda fəal iştirak edən tələbələrə verilir.<br>**Davamiyyət**<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır.<br>**Dərsə gecikmə**<br>Dərsə 10 dəqiqədən artıq gecikən tələbəyə qayıb yazılır. Buna baxmayaraq, tələbə dərsdə iştirak edə bilər.<br>**Kurs işi**<br>**Kurs işi** üçün təqdim ediləcək mövzular sillabusa əlavə ediləcək. Mövzu seçimi sərbəstdir. Mart ayından başlayaraq may ayınadək müəllimlə məsləhətləşmələrin aparılmalıdır. Kurs işinin tam təqdimatı may ayının birinci həftəsində başa çatmalıdır. Yazılmış işlər həm email üzərindən, həm əlyazma halında qəbul edilə bilər. İş yazılarkən mənbələrə istinad edilməlidir. İstinad qaydaları müəllim tərəfindən təqdim olunacaqdır. Sonda istifadə olunmuş ədəbiyyatın siyahısı əlavə edilməlidir. Plagiat aşkarlanarsa iş qiymətləndirilməyəcəkdir.<br>**Yoxlama işi**<br>Kurs boyu iki yoxlama yazı keçirilməsi nəzərdə tutulur. Birinci yoxlama aralıq imtahanı öncəsi, ikinci yoxlama kursun sonunda həyata keçiriləcəkdir. Hər bir yoxlama işi 9 bal ilə qiymətləndirilir. Müəllimə və dekanlığa qabaqcadan məlumat verilən səbəblərdən yoxlama işində iştirak etməyən tələbə yoxlama işini növbəti həftədə yaza bilər.<br>**İmtahanlar**<br>Aralıq və yekun imtahan mövzuları tələbələrə imtahandan öncə verilir. Aralıq imtahanının sualları yekun imtahanında təkrarlanmırlar.<br>**İmtahan qaydaları**<br>Aralıq və yekun imtahanları işində tələbə tərəfindən və bir-birindən köçürmə halları qadağandır. Bu qaydaya riayət etməyən tələbələrin imtahan işi ləğv olunur və tələbənin qiyməti sıfırlanır.<br>**Fənni bitirmək qaydası** | | |

| | |
|---|---|
| | Universitetin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və yuxarı hesab edilir. Kəsiri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.<br>**Tələbələrin davranış qaydaları**<br>Dərs zamanı dərs prosesini və etik qaydaları pozmaq qadağandır. Həmçinin tələbələr arasında icazəsiz müzakirələr və mobil telefonlardan istifadə qadağandır. |

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1. | **18.12.2026**<br><br>**18.12.2026** | **Dərs 1**. Giriş. Səfəvi dövləti tarixinin Azərbaycan tarixi üçün əhəmiyyəti və Dünya tarixində yeri.<br>**Dərs 2.** Səfəvi dövləti tarixinin mənbəşünaslığı və tarixşünaslığı. | 5; s.6-15 |
| 2. | **25.12.26**<br><br>**25.02.26** | **Dərs 3.** Şeyx Səfiəddin İshaq əl-Ərdəbili və onun kimliyi. Ərdəbilin dini mərkəzə çevrilməsi. Səfəvi təriqətinin əsas özəllikləri. Şeyx Cüneyd, Şeyx Heydər zamanında baş vermiş siyasi proseslər. Qızılbaşlıq ideologiyası və onun Səfəvi dövlətinin yaranmasında rolu.<br>**Dərs 4.** Şeyx Səfiəddin İshaq əl-Ərdəbilinin "Qara Məcmuəsi" üzərində iş. İbn Bəzzaz və onun "Səvfat əs-Səfa" əsəri. (müstəqil iş) | 2; s.6-24;1, s. 364-366;<br><br>14; s.1-13 |
| 3. | **04.03.26**<br><br>**04.03.26** | **Dərs 5.** Səfəvi (qızılbaşlar) dövlətinin yaranması: Şah I İsmayıl Şeyxlikdən Şahlığa gedən yol. Şeyx İsmayılın dünyəvi hakimiyyət uğrunda Ağqoyunlular və Şirvanşahlarla mübarizəsi. Azərbaycan Səfəvi dövlətinin yaranması.<br>**Dərs 6.**<br>Şah İsmayıl Səfəvi (Xətai) külliyyatı – dövrün qaynağı kimi. (müstəqil iş) | 2;s.54-72; 1, s. 371-380; 2, s. 59-79; 5, s. 51-65;<br><br>12 ;s.11-24 |
| 4. | **11.03.26**<br><br>**11.03.26** | **Dərs 7.** Şah I İsmayıl və Şah I Təhmasib dövründə Səfəvilər dövlətinin daxili və xarici siyasəti. Səfəvi-Osmanlı, Səfəvi-Baburlu münasibətləri.<br>**Dərs 8.** İbrahim Əmini Heravinin "Fütuhati-şahi" əsəri erkən Səfəvi dövrünün qaynağı kimi. Xacə Zeynalabidin Əli Əbdi bəy Şirazinin "Təkmilətül-əxbar" əsəri. Budaq Qəzvininin "Cavahirül-əxbar" əsəri. Təhmasib | 1, s. 383-391; 2, s. 82-97; 5, s. 66-110<br><br>7; 8, s. 219-238; |

| | | | |
|---|---|---|---|
| | | təzkirəsi. | |
| 5. | **18.03.26**<br><br><br>**18.03.26** | **Dərs 9.** Səfəvi dövlətinin Şah II İsmayıl dönəmi. Dövrün xüsusiyyətləri.<br>**Dərs 10. Şah Məhəmməd Xudabəndə.**<br>Şah Məhəmməd Xudabəndə dövrünün özəllikləri. Yalançı Ismayıllar hərəkatı. Osmanlı-Səfəvi müharibələrinin yeni mərhələsinin başlanması. Səfəvi dövlətinin böhranlı vəziyyəti. | 1, s. 392-393; 2, s. 98-100; 5, s. 126-137;<br><br><br>1, s. 393-398; 2, s. 104-115; 5, s. 133-181; |
| 6. | **25.03.26**<br><br>**25.03.26** | **Dərs 11. Yoxlama işi 1**<br><br>**Dərs 12.** XVI əsr Səfəvi tarixi Avropalı səyyahların gözü ilə | <br><br>3, s. 25-30; 22; 30; 32; |
| 7. | **01.04.26**<br><br><br>**01.04.26** | **Dərs 13.** XVI əsr Səfəvi tarixi Osmanlı qaynaqlarında<br><br>**Dərs 14.** Hoca Sadettin Efendi. “Tacüt-tevarih” əsərinin təhlili. müstəqil iş) | 8, s. 205-218<br><br><br>23, s.124-130 |
| | | **Aralıq imtahanı** | |
| 8. | **08.04.26**<br><br><br><br><br><br><br>**08.04.26** | **Dərs 15. Şah I Abbas.**<br>Şah I Abbasın daxili siyasəti. İslahatlar. Ordunun nizama salınması. Şah I Abbasın Səfəvilərin itirilmiş torpaqlarını geri qaytarması. Osmanlı-Səfəvi savaşları. Səfəvilər dövlətinin yenidən qüdrətlənməsi. Şah I Abbas zamanında xarici siyasət.<br><br>**Dərs 16.** İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi) əsərinin təhlili (müstəqil iş) | 1, s. 399-409; 2, 116-154; 16;<br><br><br><br><br><br>17;s.30-36; s.93-98 |
| 9. | **15.04.26**<br>**15.04.26** | **Dərs 17. Şah I Səfi.**<br>Şah I Səfi zamanında Səfəvilərin daxili siyasəti. Daxili nizamlama prosesləri. Şah I Səfi zamanında Səfəvi – Osmanlı münasibətləri. Qəsri-Şirin anlaşması. Böyük Moğol dövləti ilə Qəndəharı uğrunda mübarizə. Şimal sərhəd qonşuları ilə yeni münasibətlər<br>**Dərs 18.** Həsən bəy Rumlu. “Əhsənüt-təvarix” əsərinin təhlili (müstəqil iş) | 2, s. 154-200<br><br><br><br><br><br>18; s.373-380;s.402-403;419-423 |
| 10. | **22.04.26** | **Dərs 19. Şah II Abbas** | |

| | | | |
|---|---|---|---|
| | **22.04.26** | Şah II Abbasın daxili islahatları, dini yöndə tədbirlər. Şah II Abbasın ölkənin müxtəlif yerlərində quruculuq işləri. Şah II Abbas dönəmində Səfəvi-Osmanlı və Səfəvi - Böyük Moğol imperiyaları arasında münasibətlər.<br>**Dərs 20** "İlk Səfəvi hökmdarları və Şah I Abbas və onun xələflərinin daxili və xarici siyasətinin əsas özəllikləri və siyasi nəticələri" mövzusunda diskussiya. | 2, s. 201-244 |
| 11. | **29.04.26**<br><br>**29.04.26** | **Dərs 21 Şah I Süleyman. Səfəvilərin zəifləmə səbəbləri.**<br>Şah I Süleyman. Avropa ilə əlaqələr. Şah I Süleyman zamanında daxili və xarici siyasət. Səfəvilərin Avropa ölkələri ilə əlaqələri. Şah I Süleymanın ticarətin inkişafı üçün gerçəkləşdirdiyi çeşidli addımlar. Şah Sultan Hüseyn. Səfəvilərdə böhranın başlama səbəbləri. Ölkə daxili üsyanlar.<br>**Dərs 22. Son Səfəvi şahları və siyasi proseslər.**<br>Rusiyanın Xəzəryanı vilayətlərə hərbi yürüşü. İstanbul müqaviləsi. Şah II Təhmasib. Nadirqulu xan. Səfəvi – Osmanlı arasında son savaşlar. Kirmanşah, Rəşt, Bağdad, Gəncə müqavilələri. Səfəvi sülaləsinin sonu. | 1, s. 464-466; 2, s. 245-275;<br><br>1, s. 466-496 |
| 12. | **06.05.26**<br><br>**06.05.26** | **Dərs 23 Azərbaycan Səfəvi dövlətinin idarə quruluşu.**<br>Dövlətin quruluşu və imperiya miqyasında hakimiyyətin həyata keçirilməsində türk əyanlarının rolu. Mərkəzi idarə orqanları. Əsgəri təşkilat. Azərbaycan Səfəvi dövlətinin idarəetmə forması. Ali hakimiyyət orqanları, onların strukturu və səlahiyyət bölgüsü. Dövlət quruluşunun forması. Hakimiyyətin həyata keçirilməsinin üsul və formaları. Şah və baş vəzirin statusu. Hakimiyyətin irsi xüsusiyyəti, hökmdarın qeyri-məhdud səlahiyyəti. Ali məclis məşvərətçi orqanıdır<br>**Dərs 24.** Dini təsisatlar. Xəlifətül-xüləfa institutu. Səfəviyyə sufi-dərviş ideya-dini cəmiyyəti. Cəmiyyətin sosial bazası. Mürşidi-kamil və onun statusu. Cəmiyyətin idarə | 3, s. 31-260<br><br>3. s. 260-316 |

| | | | |
|---|---|---|---|
| | | quruluşunda xəlifə və xəlifətül-xüləfanın hüquq və səlahiyyətləri. Şahın teokratik səlahiyyətinin əsas xüsusiyyətləri. Vəkil institutu. II Şah İsmayılın islahatları. I Şah Abbasdan sonra xəlifətül-xüləfanın dövlət idarəçiliyində hüquqlarının azalması və onun başlıca səbəbləri | |
| 13. | **13.05.26**<br><br><br><br><br><br><br><br>**13.05.26** | **Dərs 25. İnzibati ərazi bölgüsü və vahidləri** İnzibati ərazi vahidləri. İdarəetmənin həyata keçirilməsində türk-qızılbaş əyanları. Vilayətlərin idarə sistemi. Valiliklər, vilayətlər və onların tərkibinə daxil olan mahallar. Azərbaycan, Şirvan, Qarabağ, Çuxur-Səəd, Həmədan və Qəzvin vilayətləri. Vilayətlərin idarə olunmasında Qızılbaş-Türk əsilzadələrinin rolu<br>**Dərs 26. İctimai-iqtisadi həyat.**<br>Səfəvilər imperiyası dövründə şəhərlər və kəndlər. Yerli və beynəlxalq ticarət. Tədavül və maliyyə sistemi. Kənd təsərrüfatı. Sənətkarlıq. Əhali zümrələri. Torpaq sahibliyi. Səfəvi imperiyası dövründə vergi və mükəlləfiyyətlər. | 3. s. 316-450<br><br><br><br><br><br><br><br><br><br>1, s. 409-415; 2, s. 293-324 |
| 14. | **20.05.26**<br><br><br><br><br><br>**20.05.26** | **Dərs 27. Səfəvilər dövrü mədəniyyəti.**<br>Səfəvilər imperiyasında Türk dilinin statusu. XVI yüzillikdə Azərbaycan ədəbiyyatı. Ş.İ.Xətai. Məhəmməd Füzuli, Həbibi.<br>Səfəvilər dövründə elm: tibb, astronomiya, tarix. Memarlıq, təsviri incəsənət, xəttatlıq və miniatür sənəti, musiqi.<br>**Dərs 28 Yoxlama yazı 2** | 1, s. 425-459; |
| 15. | **27.05.26**<br>**27.05.26** | **Dərs 29 Kurs işlərinin müdafiəsi**<br>**Dərs 30 Kurs işlərinin müdafiəsi** | |
| | | **Final imtahanı** | |

**Kurs işi mövzuları**:

1. Səfəvi dövlətinin yaranmasında Qızılbaşlıq ideologiyasının rolu
2. Azərbaycan Səfəvilər dövləti Şah I Təhmasibin dövründə
3. Şah İsmayıl Xətayi – şeyxlikdən şahlığa gedən yol
4. Şah I Abbasın islahatları
5. Səfəvi – Osmanlı münasibətlərinin xüsusiyyətləri

6. Avropalı səyyahlar Səfəvi dövlətinin mədəniyyəti haqqda
7. Oruc bəy Bayat və onun məşhur əsəri
8. Səfəvi-Moğol münasibətlərinin təhlili
9. Səfəvilər dövlətində türk dilinin statusu.
10. Səfəvi dövlətinin Azərbaycan dövlətçilik tarixindəki rolu